# (HƏDIS (25 10

<"xml encoding="UTF-8?>

HƏDIS (25) 10

Hədis 240: İmam Hüseyn (ə) buyurur: “Mən ölümü eynilə xoşbəxtlik, zalımlarla yaşamağı isə ağrılı bir əzab sanıram.”

* * *

Hədis 241: İmam Hüseyn (ə) buyurur: “Xalqın ən səxavətlisi o kəsdir ki, heç bir hədiyyə ummadığı şəxslərə (bir şey) əta etsinlər.”

* * *

Hədis 242: İmam Hüseyn (ə) buyurur: “Üzr istəməli olacağın işdən uzaq ol. Çünki mö`min nə pis iş görər, nə də üzr istəyər.”

* * *

Hədis 243: İmam Hüseyn (ə) buyurur: “Başqalarının günahından qorxan, lakin öz günahının cəzasını yaddan çıxaranlardan olma.”

* * *

Hədis 244: İmam Hüseyn (ə) buyurur: “Salam verməyin yetmiş savabı var. Onun altmış doqquzu salam verənin, biri isə salamı alanındır.”

* * *

Hədis 245: İmam Əli (ə) buyurur: “Nə çoxdur dilin üzündən həlak olanlar!”

* * *

Hədis 246: İmam Əli (ə) buyurur: “Çox çətinliklər mülayimliklə asanlaşır.”

* * *

Hədis 247: İmam Əli (ə) buyurur: “Çoxları axirət üçün olan əməli o qədər tə`xirə salır ki, axırı ölüm onun yaxasından yapışır.”

* * *

Hədis 248: İmam Əli (ə) buyurur: “Çoxlarının orucu susuz qalmaqdan başqa bir şey deyildir.”

* * *

Hədis 249: Həzrət Əli (ə) buyurur: “Çoxlarının namazı, əziyyət və yorğunluqdan başqa bir şey ”.deyildir